olaraq oxunacaq, yəni yozulacaqdır. O hadisə, o vaqeə yozulur ki, o da yuxudur. Yəni *yu-x(H)u-Ya hu*-dur. *Ya Allahdır. Ya Haqqdır*, haqq olandır, həqiqət olandır. Həqiqət olan da, haqq olan da yozulan bizim yazımıza qədər yol alar. Bu yazı həm də bizim şəxsi taleyimizdən ötə millət,ümmət, ölkə, etnos, xalq, yurd, dövlət olma taleyimizdir. Bütün bunlar yazıyla gerçəkləşər, yazıyla baş alıb gələr, yazıyla da baş alıb gedər.

Fateh Sultan Məhmədin İstanbulu *Yazıyla-Muhammed* (ismiylə) yazısıyla alması düşündürücü və etgiləyici bir vaqeədir. Yazının magiyasını, sirrini anlayan bu nəhəng Sultan, anlamağını bir tərəfə qoymadan, yəni anladığını işə də tətbiq etməyə, özü də böyük bir qövmün, etnosun, ümmətin yolunda, *Allahın* yolunda sınaqdan keçirdi. Fateh Sultan Məhmət İstanbulu top-tüfənglə deyil, *yazıyla*, gerçək yazıyla aldı. Fateh müdhiş bir təhsil almış şəxs idi. O, Quranı, Quran elmlərini, dövrünün digər dəqiq elmlərini mənimsəmiş birisiydi. Quranı dərk edən bir zehniyyət və vusal üfüqünün açıldığının fərqində olan bu hünkar, cahan sultanı, yaxşı dərk edirdi ki, bu fəth olayı da yalnız və yalnız İlahi qaydalarla, İlahi əsaslarla, kurallarla, İlahi yasalarla, İlahi üsullarla öz həqiqətini tapır. Ancaq bu İlahi həqiqətin başında bulunacaq həqiqəti tapmaq gərək idi. Bu İlahi həqiqətin başında bu çıxılmış yolda bulunan, tapılan həqiqət isə *yazı idi*.

Fateh Sultan Məhməd xristian dünyasını, səlib vəhşiliyini, qərbin bağışlanılmaz mərifətini, İstabulun gücünü bu yazıyla, bu qala, hasar şəklində olan yazıyla tilsimləməyi bacarmışdır. Yazınının tilsimini isə kimsə aça bilməz. O tilsimi Allahdan başqa kimsə dağıda bilməz. Bütün bu imkan və gözəlliyi, üstünlüyü isə Fatehə öz zəkası, ağlı, çalışqanlığı, imanı vermişdir.

* * *

Sizcə, Fateh bu qədər adlar içində nədən Muhəmmədin adını yazdırdı İstanbulun torpağının bir parçasına? Ən azından *Allah-ın* adını yazdıra bilməzdimi bu yerə?

Muhəmməd adının özəlliyi və açımı nələri ortaya qoyur? Muhəmməd adının açımı və özəlliyi Fatehin çıxdığı yoldakı uğurlarına hansı işığı tutur? (Əgər Allah özünü yerdə təsdiqləmək üçün hz. Məhəmmədi seçirsə, Fateh nədən o yazı seçimində Allahın dediyini etməməli idi?)

Sözsüz ki, Fatehi bu qutsal səfərə vadar edən əsas məsələ, hz. Muhəmmədin bir zamanlar söyləmiş olduğu hədisdir *("İstanbul mütləq fəth olunacaqdır. Bu şəhrin alınmasına komutanlıq edən və bu şəhrin alınması uğrunda şəhid olan əsgərlər nə xoşbəxtdirlər")*. Çoxları bu hədisi səhih olmayan qismindən iddiasını irəli sürsələr də, gerçək inanc və baş vermiş bu günəqədərki hadisələr, bu hədisin səhih olduğunu ortaya qoyur.

*Muhəmməd* adındakı hər hərfin əbcəd hesabı 114 rəqəminə dəng gəlir. Bilinən o ki, bu rəqəm islam elmində Qurani- Kərimin göylərdən göndərilən surə sayısına da ayaq uydurmuş olur. Yəni Qurandakı surələrin sayısı 114-dür. Uca Yaradan yer üzünə insanlıq naminə göndərdiyi surələrin sayısı ilə *Muhəmməd* adındakı əbcəd rəqəmin eyniliyi kim olursa-olsun, onda bir düşüncə yarada bilir. Necə ola bilər ki, bu rəqəmlər eynilik təşkil edir? Uca Rəbbimiz öz nurunu, ilahi ehkamını Quranla və bu Quranı da Muhəmmədlə tamamladı. Hz. Muhəmmədi isə yer üzündəki inanclı kəsimlərlə tamamlayacağı şübhəsizdir.

Muhəmməd isminin açımının gerçək gücü və gözəlliyi, rəngarəngliliyi Muhyiddin İbn Arabinin füsusül - Hikəm kitabında öz İlahi məna həllini tapıb.

**29 oktyabr.- 2016- cı il.- S. 7.**